**GÜLNARƏ QƏNBƏROVA**
**Naxçıvan Dövlət Universiteti**
**Memarlıq üzrə fəlsəfə doktoru, dosent**
**gulnare_qenberova65@yahoo.com**

## *TÜRK-İSLAM MEMARLIĞINDA ULU CAMİLƏRİN ROLU.*

*Dinin və ruhani həyatın səmərəliliyi, onun tələblərinin reallaşma dərəcəsi baxımından İslamın "Qızıl əsri"şubhəsiz Məhəmməd Peyğəmbərin (s) yaşadığı və dinin Mədinədə möhkəmləndiyi dövr olmuşdur. "Qızıl əsr"də Həzrəti Peyğəmbərimiz (s) elm və savadı təşviq etməklə müsəlmanların ən əzəmətli İslam mədəniyyətinin əsasını qoydu ki, bu, yer kürəsinin yüksək mükəmməlliyə malik sonuncu ilahi mədəniyyəti oldu.*

*İslam mədəniyyətinin bir qolu kimi İslam memarlığı yarandı. İslam dünyasında o vaxta qədər görünməmiş yeni üslubda İslam abidələri-Cami, məscid, mədrəsə, türbə və başqa tikililərin inşası bu memarlığın yaranmasına və inkişafına səbəb oldu. İslam memarlığı təbiəti etibarilə, əxlaqi məzmun daşımaqla, müsəlmanda gözəlliyə, kamilliyə, əxlaqi saflığı meyl yaradır, mömünlərin baxışlarını vahid Allaha döğru yönəldirdi.*

*Bu dövrdə bütün müsəlman aləmində memarlıq sənəti İslam inşaat mədəniyyətinin ən yüksək zirvəsinə çatmışdır. İslam inşaat mədəniyyətinin özülündə yerlə göy, insanla Allah arasında əlaqəni möhkəmləndirilməsi məqsədilə bu dövrdə monumental binalar-Camilər inşa edilirdi. İslamın simvolu olaraq XI-XII əsrlərdən sonra Cami binalarının inşası geniş vüsət aldı. Ulu Camilərin inşasından sonra bir sıra binalar tədricən onların yerləşdiyi əraziyə köçrüldü. Rasta və Çarşı bazarlar, karvansara, buzxana və hamam binaları zamanla Ulu Camilərin əhatəsində formalaşaraq, şəhərin bazar meydanı kompleksini yaratdı. Ulu Camilər bu kompleksin baş tikilisi olmaqla, şəhərlər sonrakı inkişafında müsəlman şəhərinin memarlıq planlaşma həllini özündə əks etdirməyə başladı.*

**Açar sözlər:** *İslam mədəniyyəti, İslam memarlığı, Ulu Cami, Bazar meydanı, Memarlıq kompleksləri*

**Gulnara GANBAROVA**

## THE ROLE OF THE GREAT JAMES AT THE TURKISH-ISLAMIC ARCHITECTURE.

*Doubtless from this view point of the efficiency of the religious and ecclesiastical life and the degree of realization of its demands "Golden Age" of Islam had been the period of Prophet Muhammad's life and religion getting stronger in Medina. In the "Golden Age" by promoting science and education the Excellency Prophet founded the best magnificent Islamic culture of the Moslems and this had been the last divine culture of the Earth, which had the high completeness.*

*As a branch of the Islam culture arose the Islam architecture. Until then unprecedented in the Islamic world, in the new style creating the Islamic monuments – jame, mosques, madrasa, tomb and other buildings caused the construction and development of this architecture.*

*According nature Islamic architecture by carrying moral content was displaying interest to the beauty, perfection, moral purity in Moslem and the devouts' look was directing towards the God.*

*During this period, the architecture art had reached to the highest top of the building culture of Islam in all the Moslem world. In this period the monumental buildings – James were building, in order to strengthen the relationship between man and God, earth and sky in the foundations of Islamic culture. As a symbol of Islam the construction of the Jame buildings widespread after XI-XII centuries. After the building of Great James several buildings were been moved to their located places gradually. Rasta Bazaars, caravanserais, buildings of ice-houses and bath houses, forming at the around of Great James created the complexes of market squares of cities over time. With being the main building of this complex of the Great James, cities began to reflect in itself the architectural planning solution in the further development of Moslem city.*

***Key words:*** *Islamic culture, Islamic architecture, Great Jame, Bazaar square, architectural complexes*

**Giriş.**Dinin və ruhani həyatın səmərəliliyi, onun tələblərinin reallaşma dərəcəsi baxımından İslamın "Qızıl əsri"şubhəsiz Məhəmməd Peyğəmbərin (s) yaşadığı və dinin Mədinədə möhkəmləndiyi dövr olmuşdur. "Qızıl əsr"də Həzrəti Peyğəmbərimiz (s) elm və savadı təşviq etməklə müsəlmanların ən əzəmətli İslam mədəniyyətinin əsasını qoydu ki, bu, yer kürəsinin yüksək mükəmməlliyə malik sonuncu ilahi mədəniyyəti oldu (1).

İslam mədəniyyətinin bir qolu kimi İslam memarlığı yarandı. İslamın ilk dövründə Allaha ibadət üçün Məhəmmədin Mədinədəki evini xatırladan sadə binalar tikilirdi. O dövrdə məscidlər olmadığı üçün Allaha ibadət və namaz qılınması açıq ərazidə kənarları xətlə çəkilmiş yerlərdə edilirdi. Məhəmməd peygəmbər Mədinəyə hicrəti əsnasında Mədinə yaxınlığında Quba deyilən yerdə bir neçə gün qalır. Peyğəmbər Qubada olduğu zaman bir məscid tikdirir ki, bu gün də günümüzdə Quba məscidi olaraq bilinir. Hicrətin ilk zamanlarında Müsəlmanların qibləsi Qüds idi. Sonralar ayə olaraq qiblənin Kəbə olduğu bəyan oldu. Bu səbəblə Quranın ikinci surəsində bildirilir. Qiblənin dəyişdirilməsi haqqında ayənin Peyğəmbərə nazil olduğu Cami hazırda Mədinə yaxınlığında yerləşən iki qibləli məsciddir (1).Məscid haqqında Quranda belə buyurur: "Həqiqətən, insanlar üçün ilk qurulan ibadət evi əlbəttə Məkkədə, aləmlərə rəhmət və hidayət qaynağı olaraq qurulan Kəbəyə". Məhəmməd Peyğəmbər ikinci qibləni isə məscidi-i Əqsa olduğunu söylədi.

İslam ölkələrində məscidlər yalnız ibadət üçün, dini mərasimlər keçirmək üçün inşa edilmirdi. Məscid çox funksiyalı bir bina kimi qəbul edilir və onun içərisində edilən gözəl işlər, həm də müsəlmanlar arasında ünsiyyəti, birliyi möhkəmləndirirdi. Nəsrəddin Tusi insanların ibadətə və ünsiyyətə olan ehtiyacını belə izah edirdi: "Gerçək rabitə insan husüsiyətlərindəndir... Gerçək hikmət sahibləri bu xüsusiyyətin şərəfli olduğunu nəzərə alaraq, onu inkişaf etdirmək üçün bir sıra faydalı tədbirlər, məsələn, müxtəlif intizam, adət-ənənə icad etmişlər, camaata ibadətlə məşğul olmağı, ziyafət təşkil etməyi tövsiyə görmüşlər. Bunların hamısı ünsiyyəti qüvvədən hərəkətə keçirmək, əməli üçündür" (1). Sonradan alim camaat namazının tək başına qılınan namazdan üstünlüyünü insanlararası ünsiyyəti gücləndirməklə başlayır. Məhəllə və kənd məscidləri camaatı gündə beş dəfə, Ulu Camilər isə kənd və şəhər əhlini birlikdə həftədə bir dəfə ibadətə toplayır, onlar arasında müqaviləni, ünsiyyəti artırır. Alimə görə: Ayrıca bütün camaatın görüşməsi üçün ildə iki dəfə ibadət təyin etmişlər. Bunun üçün camaatı tuta biləcək böyük meydan seçməyi və Xamın ora dəvət etməyi buyurmuşdur. Dünya müsəlmanlarının ömürlərində bir dəfə öz həmdi ilə toplantı və görüş yeri üçün mühit sahibinin evindən (Kəbə) yaxşı yer ola bilməz. Bütün qövmlərin və peşə sahiblərinin beləcə bir yerə toplanması, alimə görə həm qarşılıqlı tayfa əldə etmək, həm də havasını dəyişmə səhiyyə üçün faydalı tədbirdir.

Quranda da belə keçməkdədir: "Allahın məscidlərini yalnız Allaha və axirət gününə imam gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar təmir edənlər. İşdə hidayət üzrə olduqları umulanlar bunlardır. Məhəmməd isə: Məscidləri bina edin, onların toz torpağını təmizləyin. Hər kim Allah üçün məscid bina edərsə, Allah da ona cənnətdə bir məscid hazırlar" demişdir (2).

**İslamda Ulu Camilərin rolu.** İslam dünyasında o vaxta qədər görünməmiş yeni üslubda İslam abidələri-Cami, məscid, mədrəsə, türbə və başqa tikililərin inşası yeni memarlığın yaranmasına və inkişafına səbəb oldu. İslam memarlığı təbiəti etibarilə, əxlaqi məzmun daşımaqla, müsəlmanda gözəlliyə, kamilliyə, əxlaqi saflığa meyl yaradır, mömünlərin baxışlarını vahid Allaha döğru yönəldirdi (3,s.18).

Bu dövrdə bütün müsəlman aləmində memarlıq sənəti İslam inşaat mədəniyyətinin ən yüksək zirvəsinə çatmışdır. İslam inşaat mədəniyyətinin özülündə yerlə göy, insanla Allah arasında əlaqəni möhkəmləndirilməsi məqsədilə bu dövrdə monumental binalar-Camilər inşa edilirdi. İslamın simvolu olaraq XI-XII əsrlərdən sonra Cami binalarının inşası geniş vüsət aldı. Ulu Camilərin inşasından sonra bir sıra binalar tədricən onların yerləşdiyi əraziyə köçrüldü.

Mədrəsə və türbələr, kitabxana və zaviyələr, Rasta və Çarşı bazarlar, karvansara və mehmanxanalar, buzxana və hamam binaları zamanla Ulu Camilərin əhatəsində formalaşaraq, şəhərin bazar meydanı kompleksini yaratdı. Ulu Camilər bu kompleksin baş tikilisi olmaqla, şəhərlər sonrakı inkişafında müsəlman şəhərinin memarlıq planlaşma həllini özündə əks etdirməyə başladı (4,s.172).

Şəhərlərdə Ulu Camilərdən ayrı olarak, hər məhəllədə məhəllə məscidləri də tikilirdi. Bəzi şəhərlərdə, şəhər mərkəzindən uzaqda, şəhərlərin kənar məhəllələrində, hətta bəzən şəhər kənarında qurulmuş müsəllə və ya namazgah adlanan ibadət yerləri də mövcutdur (5,s.310-311).

İslam dövrü Azərbaycan və Türkiyə ərazisində şəhərlərin və memarlığın inkişafı Səlcuqlarla bağlıdır. Azərbaycanın, istərsə də Türkiyənin memarlıq abidələri içərisində ən dəyərli əsərlər Səlcuqlar dövründən günümüzə qalmışdir. Orta Asyadan İran üzərindən keçərək Azərbaycana və Türkiyəyə gəlmiş Səlcuqlar, gəlişlərilə buraya yeni bir memarlıq forma və üslublar gətirmiş, Türk-İslam memarlığını özündə təcəssüm etdirən şəhərsalmada yeni planlaşma sistemini də yaratmışlar.

**Naxçıvan Ulu Camisi.** İslam dövrü Naxçıvanda şəhərinin formalaşmasında iki təməl qurum əsas rol oynamışdır-şəhər mərkəzi və məhəllələr. Məhəllələr zamanla şəhərin mərkəzi meydanının ətrafında inkişaf tapmışdır. Hər məhəllənin mərkəzi meydanı olmaqla, məhəllə mərkəzlərindən başlayan daxili yollar şəhər mərkəzində tamamlanırdı. Hər məhəllənin məscidi, hamamı, çeşməsi, kiçik ticarət dükanları var idi. İslam dövrü Naxçıvan daha da inkişaf edərək, burada “Naxçıvanşahlıq” yaranmış, Atabəy-Eldənizlər zamanı isə Azərbaycanın mərkəzi şəhərinə çevrilmişdir. Şəhərin planlı inkişafı XII əsrdə Atabəy-Eldənizlərin Naxçıvanda iqtidara gəldiyi zamandan, Naxçıvanın mərkəzi şəhərə çevrildiyi vaxtdan başlamışdır. Naxçıvanın inkişafında Yaxın və Orta Şərqin memarlığının təsiri və Türk toplumunun tarixi məcarasına bağlı olaraq sürətlə inkişafı və dəyişməsi olmuşdur. XII əsr Naxçıvanın memarlıq-planlaşma həlli Türk və İslam şəhərlərinin planlaşma və şəhər tikililərini bir arada toplayan şəhərlərin təkrarıdırda deyə bilərik.

Şəhərin əhalisinin artması, şəhərdə məhəllə sistemilə birlikdə, geniş küçə və meydanların, xəstəxana binaları, hamam, əczaxana, qonaq evləri, karvansara, məscid binaları, uşaqların təhsil alması üşün mədrəsə binaları inşa edilmişdir. Müsəlman şəhərlərində su sistemi, su kəmərləri, bulaq və çeşmələr çox böyük önəm daşımışdır. İslam dünyasında, şəhərsalma məsələsində ən böyük məsələlərdən biri, insanların sağlığının qorunmasından başlanmış, evlərin bahcalarının

olması ilə əlaqədar, onların sulama sisteminin təhciz edilməsinə qədər fikir verilmişdir (3, s.32-33).

Memarlıq doktoru Cəfər Qiyasi XI-XIII əsrlərdən etibarən dini və xatirə abidələrini Azərbaycanda, əsasəndə Naxçıvanda mülkü memarlıq tikililərinin inşasında irəliləmə olduğunu bildirir. Bu memarlıq abidələrinin əksəriyyəti “Böyük qala” adlanan İçqalada yerləşmiş, burada mədrəsə, divanxana, saray binası, türbə və b. binalar da inşa edilmişdir. Bu memarlıq abidələrinin mərkəzində isə Ulu Cami dururdu.



*Foto 1. Səlcuqlu- Atabəylərin saray kompleksi-Cüme cami (Ulu Cami), arxada Qoşa minarə, Möminə xatun türbəsi. Memar Əcəmi Əbubəkir oğlu Naxçıvani (Alman memarı Yakobstal tərəfindən XIX əsrdə çəkilmişdir)*

Orta əsrlərdə Türk şəhərlərində ən əhəmiyyətli struktur ünsürlərindən biri, şəhərin müdafiə və təhlükəsizliyini təmin edən qala divarları idi. Qala və qəsr bənzəri Türk yerləşmələrinin ətrafı, ümumiyyətlə dördbucaqlı, bəzən də düzbucaqlı formada divarlarla əhatələnirdi. “Böyük qala” və ya “Kuhandaz” adlanan qala ərazisi vaxtilə11 hek. sahəni əhatə edirmiş (4, s.75).

Orta əsrlərdə şəhərin əsas əhalisi və şəhərə gələn insanlar şəhər mərkəzində olan bazarda toplanardı. Şəhər mərkəzində Rasta bazar (örtülü bazar) və Çarşı bazarla birlikdə, şəhərin cənub-qərbində bazar meydanı, şərqində ticarət anbarları, onların əhatəsində qonaq evləri və karvansaralar, hamam və mehmanxanalar, məhəllələr var idi. “Böyük qala” saray kompleksi bu tikililərin içərisində xüsusi bir yerə sahib idi. Kompleks öz dini, ictimai, memorial strukturları ilə bir bütün yüksək tikinti sənətini, hörgü texnikasının və kərpic memarlığının nadir bədii-estetik tərtibat nümunələrinin sərgiləyirmiş. Bu kompleksin ana xəttini isə Cümə (Ulu) Cami təşkil edirdi (4, s.75-80).



*Foto 2.Əcəminin əsərləri-Cümə (Ulu) Cami və Qoşa minarə*

Mekan baxımından XII əsrdə Naxçıvan şəhər quruluşunun “Ana xəttini” təşkil edən “Böyük qala” kompleksindən günümüzə qalmış Möminə Xatun türbəsilə birlikdə, XII-XVIII əsrlərdə ictimai-ticarət funksiyası daşıyan küçədə (hazırda bu ərazi şəhərin mərkəzi küçələrindən olan Nizami Gəncəvi ilə Heydər Əliyev xiyabanı aralığında yerləşir) bir zamanlar ən əhəmiyyətli və gözəl memarlıq həlli ilə fərqli memarlıq strukturları-Cümə (Ulu) Cami, Mədrəsə, Qoşa minarə, divanxana, saray binası, iki-üç mərtəbəli köşklər, karvansara və mehmanxanalar, hamam və s. binalar cəmlənmişdir. Səlcuq-Atabəylər zamanı Bazar meydanı ilə birlikdə Rasta və Çarşı, ticarət anbarlarını da əhatə edən və sahəsi 7 hektara yaxın olan ərazinin şəhərin ictimai həyatında əhəmiyyətli bir rol oynaması təsadüfi deyildir (4, s.85).




*Naxçıvan şəhərinin 2008-ci ildə işlənmiş xəritəsi. Naxçıvan şəhərinin XII əsrdə Ulu Camisinin yerləşdiri ərazi.*

*1.“Naxçıvanqala”; 2. “Böyükqala”; 3.Bazar meydanı; 4.Çarşı bazar; 5.Rasta bazar.*



*Foto 3. Əcəminin həyadta qalan əsərləri- Yusif Kuseyir oğlu və Möminə xatun  türbəsi.*

Səlcuq-Atabəylər dövrü Naxçıvan şəhərinin möhtəşəm tikililərindən günümüzə yalnız bir neçə tikililər salamat qala bilmişdir ki, bunlar Naxçıvan memarlıq məktəbinin yaradıcılarından olan Əcəmi Əbubəkir oğlu Naxçıvaninin iki əsəridir-Yusif Küseyir oğlu türbəsi (1162) və Möminə xatun türbəsidir (1186).

XII-XIV əsrlərdə Anadolunun Türkləşməsi ilə yeni bir cəmiyyət formalaşdı. Türk-İslam sintezi altında yaranacaq sənət əsərlərinin ortaya çıxması üçün bu tələblərə cavab verə biləcək sənətçilər və onların yaratdıqları sənət əsərləri yarandı. Beləcə, xüsusi mühiti əhatələyən, İslam və Türk ənənələrinin təsiri altında yeni kompozisyalarla dəyişə bilən, müxtəlif nisbətlərdə, müxtəlif formada şəkilləndirilmiş yeni formalı binalar yarandı.

Yeni cəmiyyət, bir İslam cəmiyyəti olaraq, Anadoluda bəzi binaların növlərinin- Cami, məscid, mədrəsə, zaviyə, türbə memarlığının yaranması və Türklərin bu memarlığı buraya daşımaları, strukturların istehsal texnigi və bəzəməsi dinin hüdüdlarından çox, əldə olunan tikinti məlumatlarına bağlı olaraq ortaya çıxardı.

Məscidlərdə aparılan daş işçiliyi Suriya və ya Anadolu qaynaqlı, ağac işçiliyi Misirdən Gürcüstana qədər uzanan bir ərazidə, gəc işçiliyi İran, kərpic və kaşı bəzəməsi Azərbaycan qaynağı olsada, Anadolu memarlığında Bizans və Qərb ölkələrinin memarlıq xüsusiyyətləri də özünü göstərməkdədir. Araşdırmalardan aydın olur ki, Anadolunun ilk İslam dövrünün məscidləri məbəd, atəşgah strukturları üzərində və ya onların memarlıq formalarında, kompozisiya görünüşlərinin dəyişdirilməsi yolu ilə qurulmuştur. Anadolu ərazisində də inşa edilən ilk böyük həcimli Camilər Səlcuqların Anadoluya yerləşməsindən sonra yaranmışdır.

***Siirt Ulu Camisi-*** Səlcuqların Anadoluda inşa etdikləri ilk əsərlərdəndir. Belə ki, Anadolu Səlcuqlu dövrünün ən qədim memarlıq abidələrindən birini olan bu əsərin mahiyyətini son illərə qədər anlamaq asan olmamışdır. Çünki əsrlər ərzində Camidə aparılan bərpa və təmirlər üzündən

tikilinin üzərindəki dəyişmələr Camini tanınmaz hala gətirmişdir. Təəssüf ki, Cami və minarənin vaxtilə üzərinə yazılmış kitabənin silinməsi, bu Caminin tarixi haqqında dəqiq bir məlumat toplamağa imkan vermir. Caminin quruluş tarixi haqqında müxtəlif fikirlər vardır. Mənbələrdə, minarə qaydasını "Haza təcdidü tarixili məscidi vəl minarə cisrun limənsaa" və aləmdə, "Amələhu Əlhac İsmayıl əssafâr əl fikinî 523" ifadəli olduğu deyilən lakin indiki zamanda mövcud olmayan kitabələrə söykənərək İraq Səlcuklu Sultanı Muğizuddin Mahmud tərəfindən hicri 523 / miladi 1129 tarixində inşa etdirildiyi bildirilir (5).

Caminin minarəsi ətrafındakı bəzəklər arasında, minarənin quruluşuna uyğun olan bir kitabə müəyyən edilmişdir. Hörgülü kufi ilə yazılmış kitabə parçasından mətnin tamlığı və məna bütünlüyü təmin edəcək məlumatlara yetişməsəkdə, qalan hissəsi ehtimalla dövrün hökmdarlarının sifətlərini verməkdədir. Ankara Etnoqrafiya Muzeyində sərgilənən, Caminin taxta minbəri üzərindəki kitabələrdə Hacı İsmayıl oğlu Abdulfəttah tərəfindən inşa etdirilən bir təmirdən söz edilir. Bu dövrə aid təmirin tarixi məlum olmasada, sonrakı tarixdə yazılan kitabədə təmirin hicri 611 / miladi 1215 tarixdə aparılması haqqında məlumat verilir (5). Sıırt Ulu Camesi quruluş etibarilə İran və İraq Səlcuqlu memarlıq üslubu xüsusiyyətini özündə daşımasıyla, Anadolunun digər Ulu Camilərinin memarlıq quruluşundan fərqlənir.





*Foto 4. Siirt Ulu Camisi. Bərpadan əvvəl və son bərpadan sonra*





*Foto5. Siirt Ulu Camisinin minarəsi (bərpadan əvvəl və sonra)*

Xüsusilə araşdırmamızın ən əhəmiyyətli nöqtəsini meydana gətirən Siirt Ulu Camisi minarəsi, üzərindəki kaşı və bəzəkləri ilə Səlcuqlu memarlıq xüsusiyyətlərini Anadolu Səlcuqlu memarlığına daşıyan bir minarə nümunəsidir. Siirt Ulu Caminin minarəsi quruluş baxımından Mosul Ulu Camisinin minarəsinə bənzəyir. Düzbucaq formalı üzləri olan kubik qaidənin yüksək bir nöqtəsindən pillələrin başlaması və bu kubik kütlədən dərhal dairəvi gövdəyə keçilməsi şərəfədə çox az çıxıntılı vəziyyəti və xarici üzlərin bəzənmə forması və kərpic material ilə inşa edilməsi Mosuldaki minarəni xatırladır. Minarə məscidin şimal hissəsində, təxminən 3 m məsafədə yüngül çarpaz şəkildə müstəqil olaraq yüksəlir. Kərpic minarələrin qrupunda olduğu kimi Siirt Ulu Camisinin də minarəsi kvadrat formadan silindrik gövdəyə keçir. Minarənin oturacağı, silindirik gövdəsi mövcud ikən şərəfə, pətək və örtük günümüzə çatmamışdır. Minarənin mövcud vəziyyəti 24,52 m yüksəklikdədir.

**Diyarbəkir Ulu Camisi-**Diyarbəkır Qalasının divarları üzərində Harput qapısı ilə Mardin darvazasını birləşdirən oxun qərbində yer alır. M.Ş. 639-ci ildə İslam orduları Diyarbəkırı fəth edincə Mar-Toma (Katedral) Kilsəsinin məscidə çevrilməsiylə qurulmuşdur. Ərəblər bu məscidə Məscid-i Kəbir, Türkcədə Ulu Cami deyilir. Şah əsər olan bu məscid, tarixi baxımından da əhəmiyyətli bir əsərdir. İlk olaraq Hurilər tərəfindən Böyük Bakirələr məbədi olaraq inşa edilmişdir. Bakirələr məbədi bu an yeraltında, Ulu Caminin dibindədir. Kilsənin bu günkü vəziyyəti, plan və hansı strukturlardan meydana gəldiyi bilinməsədə, quruluşu Zəncirə Qapısı deyilən yerdən, yeraltına gizli bir yol vardır. Böyük həyətin altında böyük və uzun mərmər sütunlar var. Orjinal quruluşu olan məbədə Böyük Tanrı tərəfindən yaradılan və ya Bakirə məbədi deyirlər (6,7).



*Foto 6. Diyarbəkır Ulu Camisi. Diyarbəkir məscidləri. Diyarbəkır qala divarları.*

Cami Əməvilər dövrü, Şam Ümeyye Məscidinə bənzədilərək inşa edilmişdir. 1046-ci ildə şəhəri gəzən Nəsiri Xosrov “Ulu Camidə harimi 200 küsər tək parçalı dirəkdən, bunları bir-birinə bağlayan və yüksəldikcə kiçilən 3 mərtəbəli kəmərlər serialından, üst örtüyünün kiçik

günbəzlərindən meydana gəldiyini, həmçinin yaxınlığında istifadə olunan, döşəməsi naxışlı mərmərdən olan bir kilsənin olmasından da söhbət açır" (8). Məşhur səyyahlardan 39 il sonra 1085-ci ildə Səlcuqlar şəhəri alır və Sultan Məlikşahın əmri ilə qubernator Amidüddevle 1090-cı ildə Camidə yenidən təmir işləri apararaq, 37x23,90 smlik yazı kəmərini divara yerləşdirirlər. Çiçəkli kufi kitabədən aydın olduğuna görə, Böyük Səlcuqlu əsəridir və Məlikşah zamanında edilmişdir. Iki mərtəbəli pəncərələri ilə Əməvi quruluşunu xatırladan həyətin qərb cəbhəsi, bir Roma teatrı səhnəsindən qalan sütunlar, İnaloğullarından Atabəy Elaldi tərəfindən etdirilmiş olub 511 (1117-18) il tarixli kitabədə, Məlikşahın oğlu Əbu Şüca Məhəmmədin adı yazılmışdır. Binanın hər iki mərtəbəsində divarlarda işlənmiş kəmərlər üzərində qurulmuş çiçəkli kufi kitabələr və bəzəkləri orjinaldır. Bu hərəkətli həyət cəbhəsi, 559 (1163) də artıq müstəqil hala gələn İnaloğullarından Mahmud ibn Elaldi tərəfindən, Şərqdə eynilə təkrarlanmışdır. Elaldinin 550 (1155-56) il tarixli digər kitabəsində, "El bənna Hibbətullah Gürgani" olaraq ustanın adı yazılmışdır. Kvadrat minarə də bu tarixdə inşa edilmişdir (9,s.101).




*Foto 7. Diyarbəkır Ulu Camisi. (Foto Nejat Satıcı)*



*Diyarbəkır Ulu Camisinin planı*

Cami planda eninə düzbucaqlı formada inşa edilməklə Şam Eməviyyə Məscidinə bənzəyir. Ancaq burada qiblə divarına paralel uzanan sahınları mehrab oxunda kəsən yüksək və geniş səhnə üzəri, dik taxta bir dam ilə örtülü olub, günbəzi yoxdur. Məscidin içərisində iştirak edən məqamlar aid iti kəmərlərlə bir-birlərinə bağlanmış və yuxarıda kiçik kəmərlərlə iki mərtəbəli hala gətirilmişdir. Material olaraq daşın istifadə edildiyi əsərdə sütun və başlıqların bir hissəsi,

köhnə bir Roma teatrından gətirilmişdir. Məscidin minarəsi kvadrat formasında olub qiblə divarının xaricində, mehrabın qərbində yer alır.



*Foto 8. Diyarbəkir Ulu Camisinin Səlcuq dövrünə aid divar rəsimləri*

Diyarbəkır Ulu Camisi, İslam aləminin 5. Hərəm-i Şərifi olaraq qəbul edilir. Ulu Caminin həyət hissəsində fərqli dövrlərə aid memarlıq bəzəmələri, qabartma və kitabələr böyük bir uyğunlaşma içərisində yerləşdirilmişdir. Tarixin hər dövründə ibadət mərkəzi olaraq istifadə edilən tarixi Ulu Cami Diyarbəkirdəki ən böyük strukturlardan biridir. Iki məscidi (Hənəfilər və Safi hissəsi), iki mədrəsəsi (Mesudiyə və Zənciriyə), Şərq-Qərb maksurəsi, minarəsi, abdeshanəsi qisimlərindən meydana gəlməklə, bütün bu kompleksin mərkəzində böyük düzbucaqlı bir həyət var. Həyətin ortasında qurulmuş şadırvan 1894 tarixlidir. Qarşısında revaklı həyəti, günbəzi və kvadrat minarəsi ilə diqqət çəkən Caminin müxtəlif yerlərində inşa və təmir məzmunlu dörd ədəd kitabə yerləşir.

Sonrakı dövrlərdə Diyarbəkirdə Nisanoğlu, Ağqoyunlu və Osmanlı memarlığı altında otuzdan çox inşa edilən məscidlər vardır. Bu strukturlar şəhərin mərkəzində və məhəllələrində yer almaqla, müsəlmanların gündə 5 dəfə namaz qılmalarını təmin etməklə yanaşı, şəhərdə əhəmiyyətli memarlıq abidələridir.

**Urfa Ulu Camisi.** Bugün Urfanın mərkəzində İslam memarlıq abidələrindən tarixi dəyəri olan 50-dən çox Cami və məscid ( bunların 4 ədədi mağara məscididir), 7 təkiyə, 20 ədəd türbə, Sosial binalarından-7 mədrəsə, 2 məktəb, 1 kitabxana, 2 xəstəxana, 1 yetimxana; Su memarlığına aid 6 körpü, 13 çeşmə, 1 su kəməri, 1 su bəndi, 8 hamam, 3 gusülxanə; Hərbi memarlığa ait iç qala və şəhər qala divarları qalıntıları; Ticarət binaları 11 ədəd mehmanxana, 8 ədəd qapalı çarşı, Mülkü binalara çox sayda köşk və yaşayış evləri və 4 abidə günümüzə qədər gəlib çatıb.





*Foto 9.Şanlıurfa Ulu camisi* *Foto 10.Həzrəti İbrahim Xəlilullah Camisi*

Bunlardan Əməvilər dövründə 744-750 əsrlər arasında Harranda inşa edilən Camii Əl-Firdəvs (Cənnət Cami-Harran Ulu Cami), böyüklüyü və zəngin daş bəzəkləri ilə İslam memarlıq tarixinin şah əsərləri arasındadır. İslam dininə görə "Allahın Evi" sayılan Cami və məscidlər Allahın böyüklüyünə yaraşan bir formada saraylar da daxil olmaq üzrə memarlıq abidələri içərisində ön plana çıxır. Bu tip kompleks halında abidələri bütün İslam aləmində rast gəlirik. Urfa Camiləri bölgə xarici bütün memarlıq qrupları içərisində ən zəngin plan quruluşuna malik olan abidələrdir. 1518, 1523, 1540 və 1566-cı illərdə Urfada 34 cami və məscidin sıyahıya alındığı bildirilir. XVII əsrdə Urfanı ziyarət edən Övliyə Çələbi şəhərdə 22 Came və 67-yə qədər məhəllə məscidinin olduğunu bildirir.



*Foto 11.Şanlıurfa Ridvaniye Camisi*

Ö.Çələbinin bəhs etdiyi Camilərdən bir qismi bugündə ayaqdadır-Cami Kəbir və ya Qızıl məscid, Toxtəmur-Sara xatun Valideyi Həsən Camisi, Narıncəli Cami, məscid və mədrəsələr arasında Qaraburs məscidi, Seyid Mehmet məscidi, Sarac məscidi, Hacı Həmzə məscidi, Seyd Ömər məscidi, Hacı Budaq məscidi və s. göstərə bilərik. Sivərəkli Əli Cami, Hacı Qorxmaz Cami, Çinə Cami, tarixi məscid Şərifi, Şah Hüseyin Cami, Sakıbiyə Cami, Musa Əfəndi Cami,

Kutbiyə Cami və s. günümüzdə mövcut olmayan ancaq Vakiflər Ümumi Müdürlüyündə vakfiyələri bilinən Urfa Camiləridir (10, s.18).

**Nəticə.** İslam dövrü inşa edilmiş abidələrin tikintisində yerli materiallardan geniş istifadə edilmişdir. Memarlıq tarixindən də məlumdur ki, İslam dövrü memarlıq abidələri içərisində Türklərin yaratdıqları əsərlər öz möhtəşəmliyi, kompozisiya həlli və zəngin bəzəklərilə xüsusi bir yerə sahibdir. Bu dini memarlıq abidələri çiy və bişmiş kərpicdən, daşdan inşa edilmişdir. Bu binaların pəncərə və qapıları, eyvanları, daxili sütunları, minarə şəbəkəsi və minbərləri ağac materialı ilə işlənmişdir. Daxili divarlarında gəc üzərində oyma sənətinin ən nadir nümunələri, kaşı ilə işlənmiş bəzək kompozisiyaları diqqəti cəlb edir.

Diyarbəkir və Urfa memarlığında dini memarlıq binaları əsasən daş materialından inşa edilib. Urfa ətrafında açıq rəngli "Sarımtıl kalker" daşı memarlıqda hakim mövqey tutur və Urfa memarlığının hər dövründə istifadə olunub və hazırda da istifadə olunur. Halq arasında da "Həvara daşı" olaraq adlandırılan bu daşın yüz illərdən bəri şəhərin şimali-şərq bölgəsindən gətirildiyi və bu bölgədə antik daş ocaqlarının da çox olduğu (Dəlikli mağara) bildirilir. Uzunluğu 50-75 metr, eni 25-30 metir olan bütün daş ocaqları Qanlı mağara Dərəsi, Kasarcı dərəsi, Əhbər dərəsində çox miqdarda emal edilməkdədir.

Cənub-Şərqi Anadolunun dini memarlıq abidələrindən fərqli olaraq Naxçıvanın Türk-İslam dövrü dini memarlıq abidələri bişmiş kərpiclə inşa edilməklə yanaşı, divarlarında daha zəngin naxış çeşnilərindən istifadə edilmişdir. Naxçıvan memarlığında daşdan inşa edilmiş abidələrə XIII əsrdən sonra rast gəlirik. Abidələrin xarici divarlarını bəzəyən həndəsi və nəbati naxışlar, yazı kəmərləri, abidələrin memarlıq forması ilə ahəngdarlıq yaratmaqla, Türk-İslam memarlığının möhtəşəmliyini nümayiş etdirir.

Urfadakı dini memarlıq əsərlərində memarlıq naxışlarına çox yer verilməmişdir. Cami və mədrəsə kimi memarlıq tikililərində kaşı naxışlı bəzəklərə rast gəlməsəkdə, daş bəzəklərə də nadir hallarda yer verilmişdir. Dabbaxana Camii Minarəsində kaşı panolar Urfadakı kaşı bəzəklərinin tək örnəyini təşkil edir. Yusif Paşa, Hızanoğlu və Neymətullah Camiləri xaricində mehrabları daş naxışlı came yoxdur. Neymətullah Cami klassik "Osmanlı portalları" tərzində stalaktit bəzəkli naxışları qapısı ilə Urfa Camiləri içərisində ayrı bir yerə sahibdir. Dabbakxana Caminin şimal və şərq həyət qapılarındakı həndəsi hörgülü formalı naxışları ilə Urfa Camilərində nadir olaraq rast gəldiyimiz daş üzərində yonulmuş naxışlardır. Ayrıca Qara meydandakı

Hüseyin Paşa Cami, Həsən Padişah Cami və Yusif Paşa Cami kimi bəzi Camilərində minbər qoltukluqlarında şəbəkəli oyma texnikasında daş işçiliyindən istifadə edilmişdir.

Ağacla işlənmiş bəzəklərə Rizvaniyyə Caminin inşa tarixindən qalma (1736) ağac oyma qapıları rəngli qələm işləri ilə Həsən Padişah Cami minbərinin qapı tağları, Camilərdə ağac işçiliyinin tamamını təmsil edir.

Diyarbəkirdə yerləşən Ulu Cami və məscidlər də daşdan inşa edilmişdir. Məscid və mədrəsələrin xarici fasadları sadə daş işçiliyi olsada, daxili məkanlarında və mehrablarında daş üzərində yonma sənətinin və kaşı ilə işlənmiş bəzəklər üstünlük təşkil edir. Daş üzərində oyma sənətinin ən nadir nümunələri isə Diyarbəkir Ulu Camisinin xarici divarlarında Səlcuqlar dövrü qurulmuş yazı kəməridir. Çiçəkli kufi xətti ilə yazılmış bu yazı qurşağı Mömünə xatun türbəsinin yazı kəmərlərinə qismən oxşasada, material baxımından fərqlidir. Diyarbəkir Ulu Caminin digər camelerden fərqləndirən onun mərkəzi həyətə giriş qapıları yanlarında Səlcuq memarlığında tez-tez rast gəldiyimiz "Heyvan üslubu"nda daş üzərində qabarıq şəkildə oyulmuş heyvanların mücadilə səhnələrini əks etdirən panolardır.

Urfa və Diyarbəkir Ulu Camilərindən fərqli olaraq Sıırt Ulu Cami binasında dəfələrlə aparılan bərpa və təmir işlərilə əlaqədar onun xarici görkəmi tamamilə dəyişdirilmişdir. Lakin bütün bunlara baxmayaraq onun bişmiş kərpiclə tikilmiş minarəsi üzərində göy rəngli kaşı ilə işlənmiş sadə həndəsi naxışlar, işlənmə texnikasına görə Naxçıvanın XII əsr memarlığı ilə eynilik təşkil edir.

İslam dövrü inşa edilən hər bir binanın, xüsusilə də Ulu Camilərin tikintisinə xüsusi diqqət yetirilirdi. Binanın harada tikiləcəyi, torpaq və ətrafla uyğunlaşdırılmasına diqqət edilirdi. Camilərin şəhər ərazisində yerləşdirilməsi planlı şəkildə aparılırdı. Cəbhə, simmetriklik, vəzin və ritm hesablanırdı. Məscid həyətlərinə ən uyğun şəkildə ağac əkilməsi və ətraf mühitin yerləşdirilməsi əhəmiyyətli idi. Tikinti kompleksinə bütün məscidlər, mədrəsələr, məktəb, bazarlar daxil idi. Memarlar, istilik, səs və işiq nizamını, havalandırma və daxili bəzəyəcək detallara qədər ölçülərini çıxarırdılar. Tikintinin başa gəlməsində önəm daşıyan materialların haradan gətiriləcəyi və hansı materialdan inşa olunacağı haqqında da qabaqcadan məlumat verilirdi. Memarlar tərəfindən binaların palçıqdan və ya taxtadan maketi qurulur, sonra isə binaların özülü atılaraq inşa edilirdi. 1400 illik tarixdə Türk-İslam sintezindən yaranan binalar bir prinsip əsasında qurulduğuna görə, dövründən asılı olmayaraq öz möhtəşəmliyi və gözəlliyi ilə Türkçülüyü və İslamın qanunlarını əks etdirməkdədir.

## ƏDƏBİYYAT


1. www.google.com. Məscid.13 fevral 2013.
2. www.google.com. İslam Ensiklopediyası-Ulu Cami. İstanbul,cilt.42, s. 80.
3. Abasov A., Abasov E., Hüseynova E. İslam memarlığı və inşaat, Bakı, 2010, 83s.
4. Qənbərova G. Naxçıvanda məskunlaşma və şəhərsalmanın inkişafı. Naxçıvan, 2017.
5. Can Y., Gün R. Ana hatlarıyla Türk-İslam sanatları ve estetiği.İstanbul,2012, 416 s.
6. Orhan Cezmi Tuncer. Diyarbakır Camileri. Ankara, 2015, Diyarbakır Böyükşehir Belediyesi, Kültür ve Sanat yayınları, 360 s.
7. Kuban D. Çağlar Boyunca Türkiye Sanatının Anahatları. İstanbul, 2004-2012, Yarı Kredi Yayınları, 250 s.
8. Çelebi E. Seyahatname (Çeviri: Zuhuri danıçman). Cilt 6, İstanbul, 1970.
9. Aslanapa O. Türk Sanatı. İstanbul, 1989, Remzi kitabevi, 454 s.
10. Kürkçüoğlu A. Şanlıurfa Ulu Camileri. Ankara, 2013, 231 s.